**Belarus Milli Kitabxanası və**
**Azərbaycan Milli Kitabxanası**
**arasında əməkdaşlıq haqqında**
**Saziş**

Tərəflər direktor Roman Motulskiy tərəfindən təmsil olunan Nizamnamə əsasında fəaliyyət göstərən Belarus Milli Kitabxanası və direktor KərimTahirov tərəfindən təmsil olunan Nizamnamə əsasında fəaliyyət göstərən Azərbaycan Milli Kitabxanası aşağıdakı Sazişi imzaladılar:

kitabxanalar arasında əməkdaşlığın hərtərəfli inkişafı, təbliği, elm, mədəniyyət və kitab mübadiləsi üçün şəraitin yaradılması məqsədilə aşağıdakı razılığa gəldilər:

## Maddə 1

Elmi və kitabxana-informasiya sahəsində nailiyyətləri və perspektivləri haqqında bilik və təcrübə mübadiləsi məqsədilə, tərəflər aşağıdakı sahələrdə əməkdaşlıq etməyi öhdələrinə götürürlər:

- kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması;
- elektron kitabxanasının və elektron kataloqunun qarşılıqlı istifadəsi;
- elektron məlumat mübadiləsi;
- kitabşünaslıq və kitab nəşri sahəsində elmi tədqiqatlar;
- nadir kitabların bərpası və konservasiyası texnologiyaları;
- kitabxana arxiv işinin təkmilləşdirilməsi üçün beynəlxalq mübadilə inkişafı;
- kitab sərgilərinin təşkili;
- kitabxana işçiləri arasında təcrübə mübadiləsi, elmi konfransların, müxtəlif treninqlərin, seminarların təşkili.

## Maddə 2

Tərəflər qədim əlyazma və çap məhsullarının tədqiqatı, öyrənilməsi və mübadiləsi (elektron və surətləri) sahəsində qarşılıqlı əməkdaşlığı genişləndirəcək.

## Maddə3

Tərəflər əməkdaşlığın nəticələrinə görə birgə nəşrlər hazırlayacaq, kütləvi informasiya vasitələrində çıxışlar edəcək və İnternet vasitəsilə ictimaiyyətə çatdırılacaq.

**Maddə 4**

Tərəflər bildirirlər ki, birgə fəaliyyət əməkdaşlığın hər istiqamətində dəqiqləşdirilə bilər və Sazişə əlavələr ola bilər, bu da Sazişin ayrılmaz hissəsi olacaq.

**Maddə 5**

Bu Sazişim zalandığı andan qüvvəyə minir və 5 il müddətində qüvvədə qalır.ƏgərTərəflərdən biri hər hansı bir səbəbdən Memorandumu ləğv etmək istəsə, onda digərTərəf bu barədə 6 ay ərzində yazılı şəkildə məlumat verməlidir.Əgər qarşı tərəf bu barədə heç bir məlumat almasa, onda Saziş avtomatik olaraq növbəti 5 il üçün uzadılacaq.

Bu Saziş Minsk şəhərində 14 sentyabr 2017-ci ildə rus və Azərbaycan dillərində imzalanmışdır. Bütün mətnlər eyni qüvvəyə malikdir. Hər hansı bir problem yarandıqda üstünlük rus variantına verilir.

**Tərəflərin hüquqi ünvanları:**

**Belorus Milli Kitabxanası**
Ünvan: pr. Nezovimosti 116
220114, Minsk şəh.,
Belorus Respublikası
T.:+ 375172663700
F.: +375172663706
E-mail: inbox@nlb.by

**Azərbaycan Milli Kitabxanası**
Ünvan: Xaqani küç., 29
AZ 1000, Bakı şəh.,
Azərbaycan Respublikası
T.: +994 12 493 40 03
F.:+994 12 498-08-22
E-mail: contact@anl.az

Direktor ________ R.S.Motulskiy

Direktor ________ K.Tahirov